Ədalət.-2019.-19 yanvar.-S.9.

# KƏDƏR VƏ HƏSRƏT DOLU ƏBƏDİYYƏT NƏĞMƏSİ

## ŞƏRUR ŞƏHƏRİNDƏ YAŞAMIŞ NAKAM ŞAİR, ŞƏHİD ATASI RƏHİM ABDULLANIN HƏYAT VƏ YARADICILIĞINA QISA BİR NƏZƏR



*İbrahim YUSİFOĞLU,*
*"Şərur" Ədəbi Birliyinin rəhbəri,*
*şair-publisist*

**Qarşımdakı "Dünya məni danışdırır" adlı əl boyda kitabdakı şeirlər məni öz dünyamdan alıb, xəyallarımda olan bir dünyaya qovuşdurubdur. Kitabın müəllifi Şərur rayon Su Tikinti Quraşdırma idarəsinin çilingəri işləmiş, poeziya vurğunu, şəhid atası, həyatdan vaxtsız köçmüş Rəhim Abdulladır. O, Rəhim Abdulla ki, kitabdakı ilk şeirində yazır:**

**Bu Yer kürəsində olsam harada,**
**Həyatla qaynayıb-qarışaram mən.**
**Tanrıdan nə gəlsə, deyərəm bu da**
**Bir tale işidir, barışaram mən.**

**Bir şeylə barışa bilmərəm, qardaş--**
**Başımızdan düşsə papaqlarımız.**
**Əriyib gedərəm mən yavaş-yavaş,**
**Əgər qayıtmasa torpaqlarımız!..**

...Soyuq bir qış günü həmsöhbətim Tatyana xanımla görüşəndə nədənsə, ilk olaraq bu misralar düşdü yadıma.

Tatyana xanım yaylığının ucu ilə gözlərinin yaşını silib dedi:

- Bilirsiniz ki, yeganə oğlumuz Rövşən iyirmi yaşında şəhid olmuşdur. Sinəsinə çalın-çarpaz dağlar çəkilən ömür-gün yoldaşım Rəhim Abdullanın sözləri yadıma düşür: "Çırağımız söndü, Tatyana! Oğlumuz Rövşən sağ qalsaydı, mən dünyadan köçəndən sonra şeirlərimi redaksiyalara aparar, dərc elətdirər, qoymazdı el-obada məni unutsunlar. Qızlarım Rəhimə və Zümrüd Rövşənin işini görə bilməzlər".

Qəhər boğdu onu, sözlər şüşə qırıntıları kimi ətrafa səpələndi -- yarımçıq qalmış şeirlərin müəllifinin arzuları, istəkləri kimi...

Bir bənd şeirni xatırladım Rəhim Abdullanın:

**Mən uzaq olmuşam bayağı sözdən,**
**Hər sözüm Vətənə sədaqət andım.**
**Ömrümü xərcləyib qətrə-qətrə mən,**
**Vətən məhəbbəti, eşqi qazandım.**

Dərdləri dağlar qədər olsa da, Rəhim Abdulla sevərək yaşadı və sevə-sevə də tərk etdi bu dünyanı. Vətənə, yurda, şeirə-sənətə olan sevgisi onun həyat amalı idi.

Bir də Tatyana xanıma və qızlarına olan sevgisi, onların son təsəllisi olan kitabları və kitablarındakı poema və şeirləri qaldı bu dünyada. Bu poema və şeirlər isə onu həmişə yaşadacaqdır bu dünyada.

Rəhim Abdulla 1949-cu ildə Araz çayının sahilində, Şərur rayonunun Alışar kəndində anadan olmuşdur. Dünyalar qədər sevdiyi şəhidlik zirvəsinə ucalan oğlu Rövşəni isə 1994-cü ildə itirmişdir.

Özü isə 2000-ci ildə, yağışlı-yağmurlu bir payız çağında, ömrünün 51-ci ilində gözlərini bu dünyaya əbədi yummuşdur. Uzun sürən xəstəlik onu sevdiklərindən, onu sevənlərdən, söz dünyasından, öz dünyasından alıb apardı və haqq dünyasında yeganə oğluna qovuşdurdu.

Ölümündən 6 ay əvvəl "Dünya məni danışdırır" və "Karvan" şeirlər kitabları işıq üzü görmüşdü. Ürəyində qövr edən dərdləri, qalaq-qalaq yığılmış sözləri, daha nələri, nələri, qaldı şairin.

Rəhim Abdulla dəyanəti, qüruru, sadə davranışı, səmimi və aydın danışığı, dəyərli məsləhəti, dəyişməyən, dönməyən yolu ilə tanıdığım gündən qəlbimə yatmışdı.

Oğlu Rövşənin igidliyindən bəhs edən "Mən sizi görürəm, ana!" adlı oçerkim "Şərurun səsi" qəzetinin 20 yanvar 1999-cu il tarixli nömrəsində dərc olunduqdan sonra isə daha da yaxınlaşdıq.

Özünü hələ şair hesab etməyən Rəhim Abdulla: "Mən çilingər babayam, öz sənətimi sevirəm. İlk müəllimim anam, son müəllimim yengicəli Kamil Qafarov olub. Anam mənə bayatılarımızı, Kamil Qafarov isə ədəbiyyatı aşılayıb", -- deyirdi.

Rəhim Abdulla yurdumuzun pərvanəsi idi. Hələ sovetlər dönəmində Şərurun ermənilərlə sərhəddə yerləşən Havuş və Billava kəndlərinin "perspektivsiz dağ kəndi kimi" köçürülmələri yamanca təsirləndirmişdi Rəhimi:

**Billava boşalıb, köç edib ellər,**
**Yamaclarda boynun bükübdü güllər,**
**Selovda özüylə oynayır sellər,**
**Bulaqlar Habilin "Zəminxarə"si,**
**Billava dərəsi.**

**Havası ömürə-ömür calayır,**
**Sel suları dağ dibini yalayır,**
**Çaşıra əl atsan əli dalayır,**
**Gicitkan koludur yanı-yörəsi,**
**Billava dərəsi.**

1997-ci ildə "Şirvannəşr"də "Bu həyat mənimlə yola getmədi" adlı şeirlər kitabım çap olunmuşdur. Oxucular tərəfindən rəğbətlə qarşılanan bu kitabın bir sayını da öz imzamla Rəhim Abdullaya təqdim etdim. Bir müddətdən sonra o illərdə Bakı şəhərində dərc olunan "Naxçıvan" qəzetində geniş həcmli bir məqalə ilə kitaba münasibətini bildirmiş, sonda "Bu həyat mənimlə yola gedib ki..." şeirini yazmışdır.

**Bu həyatın vardır min cür oyunu,**
**Nə zaman istəsə tutar toyunu,**
**Təsəlli naminə demirəm bunu.**
**Bu həyat kiminlə yola gedib ki?!.**

**Dərd qoşun bağlayıb gələr üstünə,**
**Yandırar, kor edər acı tüstünə.**
**Bilmək olmur, istəyi nə, qəsdi nə?**
**Bu həyat kiminlə yola gedib ki?!.**

**Yal otu deyilik yala əyilək,**
**Ağlatsa ağlayaq, güldürsə gülək,**
**Bizim də iqbala əsib bu külək,**
**Bu həyat kiminlə yola gedib ki?!.**

**Acısın görməyən deyir:- bal dadır!**
**Yağı yağ üstündən verir, aldadır.**
**Qazanda yarmanı yavan qaynadır,**
**Bu həyat kiminlə yola gedib ki?!.**

**Sınamışam, bilməz nədir çörək, duz,**
**Başımız üstündə sönübdür ulduz,**
**Səni yetim qoyub, məni oğulsuz,**
**Bu həyat kiminlə yola gedib ki?!,**

Rəhim Abdulla bu gün həyatda yoxdur.

Ancaq ölüm sevinməsin qoy. Biz bununla təskinlik tapırıq ki, Rəhim Abdulla ölümsüz olub. Hansısa bir müdrik Tanrı bəndəsi çox yerində deyib ki, "Ölümsüz olmaq ölməmək deyil, ölümsüz olmaq son anda söz almaqdır, sözə çevrilməkdir.

Dünyanın əvvəli də sözdür, sonu da insan ruhunun ölməzliyi haqqında əbədiyyət nəğməsidir söz...!". Rəhim Abdullanın yaradıcılığı dünən də oxunub, bu gün də oxunur, sabah da oxunacaqdır. Deməli şair kitabları ilə yaşayır və innən belə də yaşayacaqdır. Həmin poetik əsərlər illər boyu oxunacaq və Rəhim Abdulla da dünyada əbədi qalacaqdır. Çünki o, şəhid atasıdır.

**İlham atın yəhərləyib,**
**Şahə qalxır, kəhərlənib,**
**Hərdən-birdən qəhərlənib,**
**Qəmdən ocaq çatasıyam,**
**Çünki, şəhid atasıyam!**

**Saçlarıma qar ələnib,**
**Salxım dərdim gilələnib,**
**Torpaq kimi iynələnib,**
**Torpağa can qatasıyam,**
**Çünki, şəhid atasıyam.**

**Ümidimiz qalıb gücə,**
**Qanad qırıq, zirvə uca,**
**Şəhidləri quca-quca,**
**Mən onlarla yatasıyam,**
**Çünki, şəhid atasıyam.**